**NÜŞABƏ MƏMMƏDOVA**
*Azərbaycan MEA A.A.Bakıxanov adına Tarix İnstitutunun böyük elmi işçisi, tarix elmləri namizədi*

# I DÜNYA MÜHARİBƏSİNİN BAŞLANMASI İLƏ ƏLAQƏDAR "BAKI MÜSƏLMAN XEYRİYYƏ CƏMİYYƏTİ"NİN HƏRBİ XƏSTƏXANASI BARƏDƏ

I Dünya müharibəsinin başlanması Rusiyanın bütün ərazilərində olduğu kimi, Şimali Azərbaycanda, o cümlədən Bakıda böyük həyacan doğurdu. Müharibənin başlanması ilə əlaqədar olaraq dövlət və hökumət orqanları tərəfindən həlli vacib olan bir sıra fövqaladə tədbirlər həyata keçirildi.

1914.-cü il iyulun 23-də müharibə elan olunandan dərhal sonra müharibəyə çağırış elan etmək üçün Bakı şəhər dumasının iclası çağrıldı. Həmin iclasda həlli vacib olan tədbirlərin həyata keçirilməsi qərara alındı. Bu ilk növbədə döyüş bölgələrində, eyni zamanda Rusiyanın xəstəxanalarına gətirilmiş xəstə və yaralılara tibbi yardım göstərmək üçün hər iki cinsdən olan şəxslərin tibbi bölmələrə qəbul edilsindən ibarət idi. Şəhər dumasının qərarı ilə bu məqsədin həyata keçirilməsi üçün ehtiyat kapitaldan 100.000 rubl vəsait ayrılmışdır. Həyata keçiriləcək bütün tədbirlər dövlət və hökumət orqanlarının xüsusi nəzarəti altında həyata keçirilirdi. Belə ki, bu işə Şəhər idarəsi vəkil təyin edilmiş, Bakı şəhər dumasının deputatlarından ibarət xüsusi komissiya təşkil olunmuşdur. (1)

Beləliklə, çox qısa vaxt ərzində Şəhər Mixaylovski xəstəxanası nəzdində 6 həftəlik pulsuz tibb bacısı və feldşer kursları (nəzəri və təcrübi) təşkil edildi və bunun üçün ilkin olaraq 2.000 rubl vəsait ayrıldı.(1)

Müharibənin başlanması ilə əlaqədar həyata keçirilən tədbirlər təkcə dövlət və hökumət orqanları tərəfindən deyil, Bakıda fəaliyyət göstərən ictimai təşkilatlar tərəfindən də həyata keçirilirdi. Bu təşkilatlar içərisində "Bakı müsəlman xeyriyyə cəmiyyəti"nin geniş miqyaslı fəaliyyəti böyük tarixi əhəmiyyətə malikdir.

"Bakı müüsəlman xeyriyyə cəmiyyəti" bu sahədə ilk addım olaraq 1914-cü ilin sentyabrında Bakı şəhər rəisinin rəsmi icazısı ilə xəstə və yaralı hərbçilərə kömək üzrə Azərbaycanın görkəmli ziyalılarından, Bakı şəhərinin fəxri müsəlmanlarından və sahibkarlardan ibarət xüsusi bölmə - "Müharibədə yaralanan və xəstə hərbçilərə kömək göstərmək üzrə bölməsi"ni təşkil etdi.(2) Bölmənin aşağıdakı tərkibdən ibarət idarə heyəti və 32 nəfərdən ibarət bölmə üzvləri var idi: (3) Sədr- Mirzə Əsədullayev, xəzinədar -Fətulla bəy Rüstəmbəyov, katib- Mehdi bəy Hacınski, bölmənin üzvləri:(4) Axund Molla Ağa Ağa Əlizadə, Məşədi bəy Əzizbəyov, İbad Əliyev, Nuri Əmiraslanov, Əbdüləli bəy Əmircanov, Əsədulla Əhmədov, Bala bəy Aşurbəyov, İsa bəy Aşurbəyov, Ağa Aşurov, Əli Heydər Babayev, İsa bəy Hacınski, Məmmədhəsən Hacınski, Ağa Mir Məmməd Kərim Hacı Mir Cəfərzadə, İsrafil Hacıyev, İbrahim bəy Heydərov, Həsən Ağa Həsənov, Zalı Həsənov, Yusif Dadaşov, Məmməd Yusif Cəfərov, Qasım Qasımov, Ağa Qəni Məmmədov, Həbib bəy Mahmudbəyov, Ağa Murtuza Muxtarov, Ağa Musa Hağıyev, Tağı Nağıyev, Bəxşiş bəy Rüstəmbəyov, İsmayıl bəy Səfərəliyev, Məlik bəy Sultanov, Hacı Zeynalabdin Tağıyev, Əli Mərdan bəy Topçubaşov, Zeynal bəy Səlimxanov.

"Bakı müsəlman xeyriyyə cəmiyyəti"nin ""Müharibədə yaralı və xəstə hərbçilərə kömək göstərmək üzrə bölmə"si bu sahədə ilk addım olaraq 1914-cü ilin oktyabrında cəmiyyətin "İsmailiyyə" binasında müsəlman hərbi xəstəxanasını təşkil etdi. Bu 100 çarpayılıq hərbi xəstəxana idi və bölmə tərəfindən olduqca yüksək səviyyədə lazımi tibbi avadınlıqlar-

la təchiz edilmiş, həmçinin burada yerləşdiriləcək yaralı və xəstə hərbçilər üçün lazımi şərait yaradılmışdır.(5)

"Bakı müsəlman xeyriyyə cəmiyyəti"nin hərbi xəstəxanası müharibənin başlanğıcında təşkil olunan ilk hərbi xəstəxanalardan biri idi.

1914-cü il oktyabrın 27-də Bakı şəhər başçısının məlumatında qeyd olunur ki, müharibənin başladığı ilk aylarda Bakıda fəaliyyət göstərən ayrı-ayrı müəssisələr və xeyriyyə cəmiyyətləri tərəfindən 533 çarpayılıq 12 hərbi xəstəxana təşkil olunmuşdur. Bunlar arasında Qırmızı Xaç cəmiyyəti tərəfindən təşkil olunan hərbi xəstəxana 150 çarpayılıq , "Bakı müsəlman xeyriyyə cəmiyyəti" 100 çarpayılıq, Bakı şəhər idarəsi-70 çarpayılıq, Bakı yəhudi cəmiyyəti-12 çarpayılıq və s. hərbi xəstəxanalar təşkil olunmuşdur. (6)

"Bakı müsəlman xeyriyyə cəmiyyəti"-nin hərbi xəstəxanası yüksək səviyyəli tibbi təhsili olan kadrlarla təşkil olunmuşdur. Xəstəxanaya həmin dövrün tanınmış və nüfuzlu həkimlərindən olan Bəybala bəy Sultanov rəhbərlik edirdi. Bundan əlavə xəstəxananın tibbi heyətində 2 həkim—Həmzə Zeynalov və Kərim bəy Sultanov, həmçinin 6 tibb bacısı var idi. (7)

Cəmiyyətin idarə heyəti hərbi xəstəxanada yerləşdirilən hərbçilərə olduqca böyük diqqət və qayğı göstərirdi. İdarə heyəti tərəfindən qəbul olunmuş qaydaya görə cəmiyyətin xüsusi bölməsi olan " Müharibədə yaralı və xəstə hərbçilərə kömək göstərmək üzrə bölmə"nin bir nəfər üzvü cəmiyyətin hərbi xəstəxanasında növbədə dayanırdı. Növbədə olan şəxs palatanı yoxlayır, xəstələrə nə lazım olduğunu soruşurdu. Hər gün hərbi xəstəxanada vəziyyətə nəzarət üçün bölmənin sədr müavini İsmayıl bəy Səfərəliyev baş çəkirdi.(8)

1914-cü ilin noyabrın 6-da cəmiyyətin hərbi xəstəxanasında 74 yaralı hərbçi 5 palatada yerləşdirilmişdir.(7) Həmin günə olan məlumatda bildirilir ki, təkcə bir gündə cəmiyyətin hərbi xəstəxanasına 18 nəfər yaralı hərbçi yerləşdirilmişdir.(9)

"Bakı müsəlman xeyriyyə cəmiyyəti"nin idarə heyəti hərbi xəstəxanada yerləşdirilmiş yaralı və xəstə hərbçilərə hərtərəfli qayğı ilə yanaşı, həmçinin xəstəxananın sanitar-gigiyenik qaydalarına xüsusi diqqət yetirilirdi. Bu barədə "Kaspi"qəzeti yazırdı ki, yaralı hərbçilər "...işıqlı və təmiz palatada yerləşdirilmişdilər. Təmizlik ideal səviyyədədir. Yaralılar ya uzanıb, ya da dəhlizdə gəzirdilər. Onlardan çoxu məktub yazır, öz yerlərinə qayıtmağa tələsir. Yumşaq və təmiz yatağa baxdıqda, ilk baxışdan bilinir ki, bura sevgi ilə hazırlanmışdır."(7)

Hərbi xəstəxananın palataları 2 hissəyə ayrılmışdır. Onun bir hissəsi, əsgərlər, digər hissəsi isə zabitlər üçün nəzərdə tutulmuşdur. Xəstəxanaya daxil olan xəstə və yaralılar qəbul zamanı yoxlanılırdı. Qaydaya görə üzərlərində silah, həmçinin soyuq silah olması qadağan idi. Hərbi xəstəxanada olan hərbçilərin milliyyətcə tərkibi müxtəlif idi. Burada Qafqazda yaşayan demək olar ki, bütün xalqların nümayəndələri var idi. (7) 1914-cü ilin noyabrına olan məlumata görə xəstəxanada yalnız bir zabit—Fərrux Ağa Qayıbov yaralı halda yerləşdirilmişdir. (9)

Cəmiyyətin hərbi xəstəxanası həmçinin dövlət və hökumət orqanlarının da nəzarəti altında idi və mütamadi olaraq bu orqanlar tərəfindən xəstəxanaya baxış keçirilirdi. 1915-ci il yanvarın 7-də cəmiyyətin hərbi xəstəxanasına Bakı qarnizon rəisi kontr-admiral E.V.Klyupfelin və digər dövlət məmurlarının müşayəti ilə Ümumrusiya Sanitar Köçürmə Hissəsinin rəisi A.P.Oldenberq gəlmiş, bütün palatalarda olaraq müharibədə yaralanan və xəstə hərbçilərlə söhbət etmiş və hərbi xəstəxanaya baxış keçirmiş, şəraitin qənaətbəxş olduğunu bildirmişdir.(14)

"Bakı müsəlman xeyriyyə cəmiyyəti"nin hərbi xəstəxanasına Bakıda fəaliyyət göstərən digər milli ictimai təşkilatlar da diqqət və qayğı göstərir, müxtəlif vasitələrlə burada olan hərbçilərə mənəvi dayaq olduqlarını bildiridilər. Belə bir xeyirxah addım Sona xanım

Tağıyeva başda olmaqla "Bakı müsəlman qadın xeyriyyə cəmiyyəti" tərəfindən olmuşdur. 1914-cü ilin noyabrında cəmiyyətin qadınlardan ibarət üzvləri hərbi xəstəxanada olan hərbçilərlə söhbətlər aparmış, həmçinin onlara maddi dəstək göstərmişlər. (7)

Digər milli ictimai təşkilatlar-"Nicat" Bakı müsəlman maarif cəmiyyəti 1915-ci ilin aprelində səhnələşdirilmiş tamaşadan daxil olan 790 rubl, "Səfa" Bakı müsəlman maarif cəmiyyətinin təşkil etdiyi tamaşadan daxil olan 600 rubl məhz bu istiqamətə yönəldilərək "Bakı müsəlman xeyriyyə cəmiyyəti"nə ianə etmişlər.(15)

"Bakı müsəlman xeyriyyə cəmiyyəti"nin idarə heyəti yaralı və xəstə hərbçilərin əhval-ruhiyyəsinin yüksəldilməsi üçün mütəmadi olaraq tamaşalar təşkil edirdi. 1914-cü ilin dekabrında "Yeni il" bayramı münasibətilə müsəlman dram aktyorlarının iştirakı ilə təşkil olunan tamaşada cəmiyyətin "Müharibədə yaralı və xəstə hərbçilərə kömək göstərmək üzrə bölmə"nin sədr müavini İsmayıl bəy Səfərəliyev və bütün bölmə üzvləri, həmçinin xəstəxananın rəhbəri Bəybala bəy Sultanov başda olmaqla hərbi xəstəxanın tibbi heyəti iştirak etmişdilər. Tamaşadan sonra idarə heyəti qonaqların və hərbçilərin iştirakı ilə ziyafət təşkil etmişdir.(12)

Bayram tədbirləri demək olar ki, ənənə halını almışdır. 1915-ci il dekabrın 27-da "Yeni il" münasibəti ilə "Bakı müsəlman xeyriyyə cəmiyyəti"nin hərbi xəstəxanasında olan hərbçilər üçün axşam təşkil olunmuşdur. Dram sənəti həvəskarları iki aktdan ibarət iki pyes nümayiş etdirmişdilər. Axşamda İsmayıl bəy Səfərəliyev başda olmaqla cəmiyyətin "Xəstə və yaralı həbçilərə kömək üzrə bölməsi"nin bütün üzvləri və digər nümayəndələr iştirak edirdilər. Yaralı və xəstə hərbçılər axşamın təşkilinə və onlara olan xoş münasibətə görə "Xəstə və yaralı həbçilərə kömək üzrə bölməsi"nə, həmçinin hərbi xəstəxananın tibbi heyətinə, o cümlədən hərbi xəstəxananın müdiri həkim Kərim bəy Sultanova minnətdarlıq etmişdilər.(17)

"Bakı müsəlman xeyriyyə cəmiyyəti"nin hərbi xəstəxanasında yerləşdirilən hərbçilərə ictimaiyyətin demək olar ki, bütün təbəqələrindən yardımlar olunurdu. Bu həmin dövrdə maddi tərəfdən daha çox mənəvi birlik baxımından böyük əhəmiyyətə malik idi. Təkcə 1914-cü ilin oktyabr-dekabr aylarında cəmiyyətin hərbi xəstəxanasında yerləşdirilən yaralı və xəstə hərbçilərələrə "Kaspi" tipoqrafiyasının fəhlələri tərəfindən 16 rubl, İ.b.Hacınskinin Balaxanıdakı fəhlələri tərəfindən 57 rubl, Əlibala Əliyev adlı bir şəxs tərəfindən divar saatı,(11) tütün fabrikinin rəhbəri Hacı Nağı Mehdiyev tərəfindən 10.000 papiros ,(10) D.Kərbəlay Xocabəyoğlu 5 rubl, M.A.D.Mehdiyev 50 rubl, M.Muxtarovun səhmdar cəmiyyətinin xidmətçisi 54 rubl. Musa Nağıyevin müəssisəsinin rəhbərləri 67 rubl ianələr edilmişdir.(13)

"Bakı müsəlman xeyriyyə cəmiyyəti" müharibədən zərər çəkən müsəlmanlara yardım yığılması barədə rəsmi icazədən sonra Azərbaycan dilində nəşr olunan iki qəzetdə-"İqbal" və "İqdam" qəzet redaksiyalarında yardım yığımı açıldı. Təkcə 1915-ci ilin yanvar ayında "İqbal" qəzet redaksiyasında 10.000 rubla yaxın yardım toplanmışdır. "İqdam" qəzet redaksiyasına isə 300 rubl daxil olmuşdur. Qəzetlərin verdiyi məlumata görə bu yardımlar əhalinin orta və aşağı təbəqələrindən daxil olmuşdur.(18)

1915-ci ilin aprel ayında isə "Bakı müsəlman xeyriyyə cəmiyyəti"nə müharəbədən zərər çəkən müsəlmanların, xəstə və yaralı hərbçilərin istifadəsi üçün daxil olan aşağıdakı yardımlar qeydə alınmışdır: "İqbal" qəzet redaksiyasından müxtəlif qəbzlərlə 10.000 rubl (ayrı-ayrılıqda 2.700 rubl, 5.700 rubl, 500 rubl, 1.100 rubl), Ş.Əsədullayev müəssisəsinin işçilərindən və fəhlələrdən 270 rubl, B.A.Muxtarov imzalı vərəqlə 2.881 rubl, Daşkənddən Ə.Məmmədov, Xarkovdan Xasyana Musina, Ufimdən Xuramşina, Qazı Qamux Dairəsindən 502 rubl, M.Nağıyev müəssisələri fəhlələrindən 712 rubl, Moskvadan "İl" qəzeti 460 rubl

Şamaxı müsəlman komitəsindən 2.300 rubl, İrandan 228 rubl İrəvan müsəlmanlarından 500 rubl M.H.Hacınski 100 rubl, və s. Cəmi 21.131 rubl ianə daxil olmuşdur.(15)

"İqbal" qəzetinin redaktoru Məhəmməd Əmin Rəsulzadə daxil olan yardım haqda hesabat verərək bildirir ki, son günlərə kimi "İqbal" qəzeti kontoruna cəmi 24.954 rubl daxil olmuşdur. Bu məbləğ "Bakı müsəlman xeyriyyə cəmiyyəti"nin yardım yığımı üzrə bölməsinə keçirilmişdir.(19)

1915-ci ilin oktyabrında Bakı ictimai iclası və Bakı vəkilliyi tərəfindən cəmiyyətə 3.000 rubl yardım edilmişdir.(16)

Bir faktı qeyd edək ki, daxil olan bütün yardımlar təkcə cəmiyyətin hərbi xəstəxanası üçün deyil, müharibədən zərər çəkənlər, qaçqınlar və həmçinin müharibədə öz valideynlərinin itirmiş kimsəsiz uşaqların istifadəsi üçün sərf olunurdu.

Beləliklə, "Bakı müsəlman xeyriyyə cəmiyyəti" müharibənin ilk mərhələsində zərər çəkən müsəlmanlara, o cümlədən xəstə və yaralı həbçilərə kömək məqsədilə açdığı hərbi xəstəxananın təşkili və bu sahədə ilkin tədbirlər öz müsbət nəticəsini verməkdə idi. Bu tədbirlər təkcə xəstə və yaralı hərbçilərə göstərilən yardımla məhdudlaşmırdı. Cəmiyyət müharibədə zərər çəkənlərə, qaçqınlara və kimsəsiz uşaqlara kömək üzrə geniş fəaliyyət proqramı həyata keçirirdi Həmin dövrdə cəmiyyətin bütün fəaliyyəti məhz bu istiqamətə yönəlmişdir.

### *MƏNBƏLƏR*

1. ARDTA fond 46, siyahı 4, iş 465, v.49
2. ARDTA fond 46, siyahı 4, iş 465, v.30
3. ARDTA fond 46, siyahı 4, iş 465, v.31
4. ARDTA fond 46, siyahı 4, iş 465, v.31(arx.)
5. ARDTA fond 46, siyahı 4, iş 465, v.29, 29(arx.), 30
6. ARDTA fond 46, siyahı 4, iş 465, v.52, 52(arx.)
7. Kaspi, 6 noyabr 1914, № 249
8. Kaspi, 7 noyabr 1914, №250
9. Kaspi, 8 noyabr 1914, №251
10. Kaspi, 26 noyabr 1914, №265
11. Kaspi, 11 noyabr 1914, №253
12. Kaspi, 23 dekabr 1914, №287
13. Kaspi, 6 yanvar 1915, №4
14. Kaspi 10 yanvar 1915, №7
15. Kaspi, 26 aprel 1915, №92
16. Kaspi, 10 oktyabr 1915, №215
17. Kaspi, 30 dekabr 1915, №291
18. Baku, 19 fevral 1915, №39
19. Baku, 2 may 1915, №96

**НУШАБА МАМЕДОВА**

## ОБ ОТКРЫТИЕ ВОЕННОГО ГОСПИТАЛЯ «БАКИНСКОГО МУСУЛЬМАНСКОГО БЛАГОТВОРИТЕЛЬНОГО ОБЩЕСТВА» В СВЯЗИ С НАЧАЛОМ ПЕРВОЙ МИРОВОЙ ВОЙНЫ.

В связи с началом Первой Мировой войны со стороны государственных и правительственных органов были предприняты ряд чрезвычайно важных мероприятий. «Бакинское мусульманское благотворительное общество» в первой стадии войны открыл военный госпиталь для пострадавших в войне раненных солдат и детей и в том числе всех мусульман. Общество проводил активную деятельность, помогая пострадавшим во время войны, беженцам и детям. В этот период вся деятельность организации был направлен для реабилитации пострадавшим.

NUŞABA MAMMADOVA

## ABOUT THE MILITARY HOSPITAL OF "BAKU OF THE MOSLEM CHARITABLE SOCIETY" OPENED CONNECTED WITH THE FIRST WORLD WAR

Solution of by organs of state and government and were implemented measures connected with beginning of the war of the first world necessary a number of tops which were. " Baku of the Moslem charitable society" in the first stage of the war opened military hospital for suffered soldies and children, and also all muslims. Sosiety was implementing all activities, helpin injucred during the war refugees and children. During this time all activities of the organization were directed for helping in the war.

***Rəyçilər: t.e.n.S.Mustafayeva, t.e.d.İ.M.Məmmədov.***

***AMEA A.A.Bakıxanov adına Tarix İnstitutunun «Azərbaycanın yeni tarixi» şöbəsinin 18 yanvar 2010-cu il tarixli iclasının qərarı ilə çapa məsləhət görülmüşdür (protokol №01).***